# Xocalı soyqırımı ilə əlaqədar Britaniya parlamentinin üzvlərinə və XİN-ə məktub ünvanlanıb



**Re: Recognition and Justice for the Victims of the Khojaly Tragedy**

Each year on 26 February, Azerbaijani people at home and abroad, together with international supporters of human rights, commemorate the anniversary of the Khojaly Massacre. On the night of 25–26 February 1992, Armenian armed forces, with the backing of the Russian 366th Motor Rifle Regiment, brutally slaughtered 613 Azerbaijani civilians in Khojaly, including 106 women, 63 children, and 70 elderly people. Hundreds more were wounded, and thousands were taken captive or went missing. These atrocities, extensively documented by international human rights organisations and journalists, remain a horrific crime against humanity.

The role of Russian forces in facilitating and enabling this massacre cannot be ignored. Eyewitness accounts, as well as reports from independent observers, indicate that Russian military personnel stationed in the region not only failed to prevent the killings but were actively involved in the attack. The ongoing failure to hold Armenia and Russia accountable for their actions in Khojaly sets a dangerous precedent and undermines international efforts to uphold justice and human rights.

Though 33 years have passed, justice for the victims of Khojaly remains elusive. We do not seek revenge but demand truth, accountability, and recognition. It is vital that the world acknowledges these crimes and honours the memory of the innocent lives lost. In light of this, we respectfully request that you and your colleagues in Parliament:

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəaliyyət göstərən Britaniya Azərbaycanlıları Cəmiyyətinin (BAC) rəhbəri Fəridə Pənahovanın təşəbbüsü ilə cəmiyyət adından ölkə parlamentinin 650 üzvünə və Xarici İşlər Nazirliyinə Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar məktub ünvanlanıb.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, məktubda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş vermiş soyqırımı haqqında ətraflı məlumat verilib, beynəlxalq ictimaiyyətə və Britaniya parlamentinə faciənin tanınması, ədalətin bərqərar olması üçün çağırış edilib. Xocalı faciəsinin XX əsrin ən dəhşətli soyqırımlarından biri kimi tarixə düşdüyü diqqətə çatdırılıb. Vurğulanıb ki, Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş bu qətliam nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca amansızcasına qətlə yetirilib. Faciə zamanı 1275 nəfər əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də naməlum olaraq qalır. Şahid ifadələri, beynəlxalq hesabatlar və müstəqil araşdırmalar bu hadisənin insanlığa qarşı ağır cinayət olduğunu təsdiqləyib. Bu çərçivədə BAC beynəlxalq ictimaiyyətə, xüsusilə də Britaniya parlamentinə Xocalı soyqırımının tanınması, 26 fevral tarixinin Xocalını Anım Günü elan olunması kimi çağırışlar edilib.

Britaniya Azərbaycanlıları Cəmiyyəti Xocalı faciəsinin tanınması və Azərbaycanın haqlı mövqeyinin beynəlxalq arenada daha geniş təbliği istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcəyini bildirib.

Azərbaycan.- 2025.- 6 mart (№ 50).- S.9.